**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Coğrafiya fakültəsi*
*“Azərbaycan coğrafiyası və*
*coğrafiyanın tədrisi*
*metodikası” kafedrası*

**BAKALAVR PİLLƏSİ ÜÇÜN**

# P R O Q R A M

**(III Kurs)**

**İXTİSAS — 050507 “ Hidrometeorologiya ”**
**FƏNN – “AZƏRBAYCAN RESPULİKASININ COĞRAFİYASI”**

*Bakı Dövlət Universiteti*
*Coğrafiya fakültəsi Elmi*
*Şurasının 23 may 2022-ci il*
*7 saylı iclasının qərarı ilə fənn*
*proqramı kimi təsdiq*
*edilmişdir.*

**BAKI - 2022**

**Elmi redaktor:**
**Soltanova Həbibə Bayraməli q.** – BDU, Coğrafiya fakültəsi, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, c.e.n., dosent

**Tərtib edən:**
**Nağıyev Saleh Qasım o. -** BDU, Coğrafiya fakültəsi, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri, dosent
**Qələndərov Çingiz Saleh o**.- BDU, Coğrafiya fakültəsi, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının dosenti
**Məmmədov Qoşqar Vətən o. -** BDU, Coğrafiya fakültəsi, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müəllimi

**Rəy verənlər:**
**Eminov Zakir Namin o. -** AMEA, Akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun direktoru
**Dərgahov Vüqar Səttar o. -** BDU, Coğrafiya fakültəsi, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müəllimi.

## Azərbaycan Respublikasının coğrafiyası.

## İzahat vərəqi

Azərbaycan Respublikasının coğrafiyası fənni Bakı Dövlət Universitetinin Coğrafiya fakultəsində, geomatika və geodeziya mühəndisliyi ixtisasında təhsil alan bakalavr pilləsi tələbələrinə VI semestrdə 90 saat (60 mühazirə, 30 məşğələ) həcmində tədris olunur. Fənnin tədrisində əsas məqsədlər ölkənin fiziki-coğrafi şəraitini, relyefini və onun xüsusiyyətlərini, geoloji quruluşu, faydalı qazıntıların paylanmasını, daxili sularını, torpaq və bitki örtüyünü, heyvanlar aləmi, təbiətin mühafizəsi məsələlərini, tələbələrə öyrətmək. Eyni zamanda Azərbaycan Respublikasının iqtisadi-coğrafi və geosiyasi mövqeylərinin müsbət və mənfi cəhətlərini göstərmək. Azərbaycanın Qafqaz regionunda yeri və əhəmiyyəti, ərazisinin və sərhədlərinin formalaşması. Təbii-ehtiyat potensialının, ölkəmizin hüdudlarında gedən demoqrafik prosesləri qiymətləndirilmək. Azərbaycanın ərazi istehsal sistemləri, sənayenin, kənd təsərrüfatının, xidmət sahələrinin inkişafı və coğrafiyası haqqında məlumatları izah etmək.Azərbaycanın iqtisadi-coğrafi rayonlaşdırılması, iqtisadi rayonların ixtisaslaşması, təsərüffatlarının inkişafı və perspektivləri.

**Fənnin mənimsənilməsi nəticəsində tələbələr bilməlidir:**

- Azərbaycan Respublikasının fiziki-coğrafi mövqeyini
-Azərbaycan Respublikasının oroqrafik xüsusiyətlərini və geologiyasını

- Azərbaycan Respublikasının iqlimi,iqlim tipləri və yayılma qanunauyğunluqlarını
- Ərazinin su ehtiyatlarını,hidroqrafik şəbəkəsini
- Torpaq örtüyü və bioaləmin müxtəlifliyini və coğrafiyasını
- Azərbaycan respublikasının fiziki-coğrafi rayonlaşdırılmasını
- Azərbaycan Respublikasının iqtisadi-coğrafi və geosiyasi mövqeyini
- Baş verən demoqrafik prosesləri və regional fərqləri
- Təsərrüfatın quruluşunun ərazi və sahə xüsusiyyətlərini
- Nəqliyyat sistemlərinin inkişafı və dünya nəqliyyat infrastrukturuna inteqrasiyasını
- Xidmət sahələrinin inkişafının ərazi fərqlərini
- Azərbaycan respublikasının iqtisadi-coğrafi rayonlaşdırılmasını

**Bacarmalıdır:**

- Azərbaycan Respublikasının ərazisində oroqrafik vahidləri seçmək
- Relyefin və coğrafi enliyin iqlimin formalaşmasında rolunun təhlili
- Torpaq örtüyünün formalaşmasının və onun yayılma qanunauyğunluqlarını
- İqtisadi-coğrafi mövqeyinin müsbət və mənfi cəhətlərini təhlil etmək
- Təbii şəraiti və təbii ehtiyatları iqtisadi-coğrafi cəhətdən qiymətləndirmək
- Ərazidə gedən sosial-iqtisadi,demoqrafik proseslərə düzgün qiymət vermək

- Aldığı bilikləri istifadə edərək ərazidə təsərrüfatın planlaşdırılmasını və düzgün istifadəsinini vermək
- Regionlarda təsərrüfatın hansı sahələrin prioritet olmasını müəyyən etmək
- Ərazinin potensial inkişafı əsasında dayanaqlı inkişafın proqnozunu vermək

**Yiyələnməlidir:**

- Azərbaycan Respublikasının fiziki-coğrafi xüsusiyyətlərinə
- Azərbaycan Respublikasının iqlim tiplərinə və yayılma qanunauyğunluqlarına
- Azərbaycan Respublikasının çay sisteminə və onun formalaşmasına
- Azərbaycan Respublikasının fiziki-coğrafi rayonlaşdırılmasına
- Azərbaycan Respublikasının dünya xəritəsində yeri və əhəmiyyətinə
- Azərbaycan Respublikası ərazisində əhalinin təbii hərəkəti,doğun və ölümə təsir edən amillər və səbəblərinə
- Azərbaycan Respublikası ərazisində əhalinin məskünlaşmasına
- Təsərrüfatın sahə və ərazi quruluşu və coğrafiyasına
- Azərbaycan Respublikası ərazisində xidmət sahələrinin inkişafı və istiqamətlərinə
- Nəqliyyatın inkişafı, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əhəmiyyətinə
- Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonlaşdırılmasına

## Mövzular üzrə saatların paylanması

| № | MÖVZU | Cəmi | Müh. | Məş. |
|---|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının fiziki-coğrafi mövqeyi, sahəsi və sərhədləri | 2 | 2 | |
| 2. | Azərbaycan Respublikasının reyefi və iri oroqrafik vahidləri | 4 | 2 | 2 |
| 3. | Azərbaycan Respublikasının geoloji quruluşu, faydalı qazıntıları və mineral suları | 2 | 2 | |
| 4. | İqlim və iqlim əmələgətirən amillər. Günəş radiasiyası, temperatur şəraiti | 4 | 2 | 2 |
| 5. | Azərbaycan Respublikasının iqlim tipləri və yayılma qanunauyğunluqları, iqlim şəraitinə təsir göstərən hava kütlələri | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| 6. | Azərbaycan Respublikasında atmosfer təzyiqi və küləklər | 4 | 2 | 2 |
| 7. | Azərbaycan Respublikasının daxili suları. Çay səbəkəsi və onun formalaşması | 2 | 2 | |
| 8. | Azərbaycan Respublikasının gölləri, süni su anbarları, yeraltı suları, buzlaq və bataqlıqları | 4 | 2 | 2 |
| 9. | Azərbaycan Respublikasının torpaq örtüyü və onun yayılma qanunauyğunluqları. Torpaqların deqradasiyası | 2 | 2 | |
| 10. | Azərbaycan Respublikasının bitki örtüyü və onun yayılma qanunauyğunluqları. Bitki örtüyünün deqradasiyası. | 4 | 2 | 2 |
| 11. | Azərbaycan Respublikasının heyvanat aləmi və onun qorunması | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| 12. | Azərbaycan Respublikasının landşaftları və onun komponentlərinin diferensiasiyası. | 4 | 2 | 2 |
| 13. | Azərbaycan Respublikasında təbiəti mühafizə, xüsusi qorunan ərazilər. Milli Parklar, qoruq və yasaqlıqlar. | 2 | 2 | |
| 14. | Xəzər dənizinin coğrafiyası, suyunun fiziki və kimyəvi tərkibi, su səthinin temperaturu və şəffaflığı | 4 | 2 | 2 |
| 15. | Azərbaycan Respublikasının fiziki-coğrafi rayonlaşdırılması | 2 | 2 | |
| 16. | Azərbaycanın Respublikasının iqtisadi-coğrafi və qeosiyasi mövqeyi, ərazisi və sərhədləri | 4 | 2 | 2 |
| 17. | Azərbaycanın Respublikasının təbii-ehtiyat potensialının iqtisadi-coğrafi qiymətləndirilməsi | 2 | 2 | |
| 18 | Azərbaycan Respublikasının əhalisi və | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | demoqrafik proseslər | | | |
| 19 | Azərbaycan Respublikasının şəhər və kənd əhalisinin məskunlaşması. Növləri və formaları | 2 | 2 | |
| 20 | Azərbaycan Respublikasının yanacaq-energetika kompleksinin coğrafiyası. | 4 | 2 | 2 |
| 21 | Azərbaycan Respublikasının Metallurgiya, maşınqayırma və kimya sənayelərinin coğrafiyası. | 2 | 2 | |
| 22 | Azərbaycan Respublikasının Yüngül, qida və tikinti sənayelərinin coğrafiyası. | 4 | 2 | 2 |
| 23 | Azərbaycan Respublikasının aqrarsənaye kompleksi. Kənd təsərrüfatının coğrafiyası. | 2 | 2 | |
| 24 | Azərbaycan Respublikasının nəqliyyatının və xarici iqtisadi əlaqələrinin | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | coğrafiyası. Xidmət sahələrinin və turizmin coğrafiyası. | | | |
| 25 | Xəzər dənizinin Azərbaycan Respublikasının iqtisadiyyatında əhəmiyyəti | 2 | 2 | |
| 26 | Azərbaycanın Respublikasının iqtisadi rayonlaşdırılması. Bakı, Abşeron-Xızı iqtisadi rayonları. | 4 | 2 | 2 |
| 27 | Quba–Xaçmaz, Şəki–Zaqatala, Dağlıq Şirvan iqtisadi rayonları. | 2 | 2 | |
| 28 | Mərkəzi Aran, Mil-Muğan,Şirvan-Səlyan iqtisadi rayonları. | 4 | 2 | 2 |
| 29 | Gəncə-Daşkəsən,Qazax-Tovuz,Lənkəran-Astara iqtisadi rayonları. | 2 | 2 | |
| 30 | Naxçıvan,Qarabağ,Şərqi Zəngəzur, iqtisadi rayonları | 4 | 2 | 2 |
| **Cəmi** | | **90** | **60** | **30** |

## Mövzular və onların məzmunu

### 1.Azərbaycan Respublikasının fiziki-coğrafi mövqeyi, sahəsi və sərhədləri

Azərbaycanın yerləşdiyi əlverişli fiziki-coğrafi mövqe, Xəzər dənizi və onun fiziki-coğrafi şəraitə təsiri, Həmsərhəd ölkələr, quru və su sərhədi olan ölkələr, tarixi dövr ərzində ölkə ərazisinin sahəsinin dinamikası. Təbii şəraitinin rəngarəngliyinin və təbii ehtiyat-larını zənginliyinin sənayenin, kənd təsərrüfatının və turizm-rekreasiya təsərrüfatının inkişafın-da rolu.

**2.Azərbaycan Respublikasının reyefi və iri oroqrafik vahidləri.**

Relyef və ona təsir edən amillər, alçaq, orta və yüksək dağlıq, ovalıq və yaylalar. Relyefin inkişaf tarixi və əsas relyef formaları. Böyük Qafqaz, Kiçik Qafqaz, Arazyanı silsilələr, Talış dağlarının və Kür dağarası çökəkliyinin, Samur-Dəvəçi ovalığı və Arazboyu düzənliklərin oroqrafik və hipsometrik xüsusiyyətləri. Azərbaycan ərazisində mövcud olan əsas morfoskulpturların qısa səciyyəsi.Relyefin təsərrüfatın inkişafına təsirinin qiymətləndirilməsi.

**3. Azərbaycan Respublikasının Geoloji quruluş. Faydalı qazıntılar və mineral sular.**

Azərbaycanın təbii landşaftlarının bünovrəsini təşkil edən yaşına, mənşəyinə, tərkibinə və quruluşuna görə fərqlənən süxur kompleksləri. Paleozoy, Mezozoy (Trias, Yura, Təbaşir) və Kaynazoy (Paleogen, Neogen, Dördüncü dövr) eralarının çöküntüləri və onların yayıldığı regionlar. Azərbaycanın geoloji-tektonik inkişaf tarixi. Əsas tektonik strukturlar. Neo-tektonik, seysmik hərəkətlər və onların öyrənilmə problemləri. Azərbaycan ərazisinin tektonik rayonlaşdırılması.

Azərbaycanda mövcud olan əsas faydalı qazıntılar və onların yayılmasının coğrafi problemləri. Enerji daşıyıcıları:neft və qaz. Filiz və qeyri-filiz faydalı qazıntıları. Tikinti materialları. Mineral suları və kimyəvi tərkibi. Azərbaycanın faydalı qazıntılarından səmərəli istifadə problemləri.

## 4.Azərbaycan Respublikasının iqlimi və iqlim əmələgətirən amillər. Günəş radiasiyası, temperatur şəraiti.

Relyefin və coğrafi enliyin iqlimin formalaşmasnda rolunun təhlili. Düz və səpələnən günəş radiasiyası, ümumi günəş radiasiyası. Orta illik, aylıq temperatur şəraiti və onun paylanma qanunauyğunluqları.

## 5.Azərbaycan Respublikasının iqlim tipləri və yayılma qanunauyğunluqları, ölkənin iqlim şəraitinə təsir göstərən hava kütlələri.

Yarımsəhra və quru çöl, müayim isti, soyuq və dağ tundra iqlim tipləri və onların yayılma qanunauyğunluqları, arktik, mülayim, Orta Asiya hava kütlələri, cənub siklonları, Xəzər dənizinin iqlimə təsiri.İqlimin istiləşməsi və ətraf mühitə təsiri.

## 6. Azərbaycan Respublikasının atmosfer təzyiqi və küləklər.

Atmosfer təzyiqinin dəyişməsi və təsir edən amillər. Relyefin küləklərin formalaşmasında rolu. Yerli küləklər, Xəzri, Gilavar, dağ-dərə küləkləri, ağ və qara yel.

### 7.Azərbaycan Respublikasının daxili suları. Çay şəbəkəsi və onun formalaşması.

Daxili sular, hidroqrafik şəbəkənin paylanma qanunauyğunluqları, çayların müxtəlif əlamətlərinə görə təsnifatı. Gidalanma mənbələrinə görə çayların təsnifatı. Böyük Qafqaz, Kiçik Qafqazın çayları, Kür və Araz hövzəsi çayları, birbaşa Xəzər dənizinə tökülən çaylar, tranzit çaylar, əsas çaylar və onların hidroloji xüsusiyyətləri.

### 8. Azərbaycan Respublikasının gölləri, süni su anbarları, yeraltı suları, buzlaq və bataqlıqları

Əsas göllər və müxtəlif əlamətlərinə görə göllərin təsnifatı. Vulkanik, tektonik, laqun, axmaz göllər, uçqun-bənd mənşəli göllər. Yeraltı sular və onların yayılma qanunauyğunluqları.Əsas yeraltı su hövzələri. Buzlaqlar və iqlim dəyişikliklərinin onların paylanmasına təsiri. Bataqlaıqlar və onların formalaşmasına təsir göstərən amillər.

### 9. Azərbaycan Respublikasının torpaq örtüyü və onun yayılma qanunauyğunluqları.

Azərbaycan ərazisində torpaq əmələgəlmənin xüsusiyyətləri. Əsas torpaqəmələgətirən amillər və onların şaquli qurşaqlar üzrə dəyişməsi. Relyef, geoloji quruluş, iqlim, bitki örtüyü, mikroorqanizmlər, antropogen amil - əsas torpaqəmələgətirən amillərdir. Azərbaycan

torpaq-larının genetik təsnifatı. Azərbaycanın düzənlik və dağ torpaqları, onların diaqnostik əlamətləri və morfogenetik xüsusiyyətləri. Zonal, azonal, intrazonal və inversion torpaq tipləri. Azərbaycan torpaqlarının meliorasiyası və mühafizəsi problemləri.

Torpaq örtüyünün təsərrüfatın inkişafında rolu, təbii və antropogen təsirlər nəticəsində torpaqların deqradasiyası.

## 10. Azərbaycan Respublikasının bitki örtüyü və onun yayılma qanunauyğunluqları.

Azərbaycanın bitki örtüyünün IV dövr ərzində inkişaf tarixi. Azərbaycanın əsas bitki-ekolji qrupları və onların ərazinin iqlimi və oroqrafiyası ilə əlaqəsi problem-ləri. Bitkilərin şaquli qurşaqlar цзря yayılma xüsusiyyətləri. Azərbaycanın əsas oroqrafik vahidlərində: Böyük Qafqaz dağlarında, Kiçik Qafqazda, Talış dağlarında və Naxçıvan MR-da bitkilərin şaquli qurşaqlar üzrə yayılmasında fərqli və oxşar cəhətləri. Böyük və Kiçik Qafqaz dağ meşələrinin spesifik əlamətləri və insanların təsərrüfat fəaliy-yəti nəticəsində dəyişikliyə məruz qalması. Ərazidə əsas bitki tiplərinin yayılması: düzənlik və dağətəyi zonanın yarımsəhra-quru çöl və çöl bitkiləri, meşə və meşə-kol bitkiləri, aran və dağ meşələri, dağ kserofit bitkiləri, dağ-çəmən bitkiləri, çala-çəmən bitkiləri. Bitki örtüyünün formalaş-masında azonallıq, intrazonallıq və inversiya, onların yaranma səbəbləri. Tipoloji vahidlərə görə bitkilərin regional xüsusiyyətləri, endemik və relikt bitki növləri, onların ərazidə yayılması problemləri. Geobotaniki rayonlaşma. Müxtəlif təsirlər nəticəsində bitki örtüyünün deqradasiyası.

## 11. Azərbaycan Respublikasının heyvanat aləmi və onun qorunması

Azərbaycanın faunasının müxtəlifliyini müəyyən edən fiziki-coğrafi şərait. Heyvanlar aləminin formalaşma tarixi. Müxtəlif landşaft qurşaqlarında (yarımsəhra quru-çöl; arid-denudasion alçaq dağlıq; tuqay və aran meşələri; hidromorf landşaftlar, dağ-çəmən qurşağı, yük-sək dağ çəmənləri, dağ çölləri və qayalıqlar) yayılmış fauna qruplaşmaları: məməlilər, sürünənlər, quşlar, balıqlar və s. Heyvanlar aləminin mühafizəsi problemləri.

## 12. Azərbaycan Respublikasının landşaftları və onun komponentlərinin diferensiasiyası.

. Azərbaycan landşaftlarının təkamül tarixi. Azərbaycan ərazisinin landşaft-ekoloji xüsusiyyətləri. Müasir landşaft komplekslerinin ərazi differensasiyasının əsas xüsusiyyətləri və qanunauyğunluqları. Landşaftın differen-sasiyasına təsir edən əsas amillər (relyef, iqlim, geoloji süxurlar və s.). Landşaftın tipoloji və taksonomik təsnifatının problemləri. Azərbaycan ərazisində yaranmış əsas landşaft tip və yarımtipləri, onların qısa səciyyəsi. Əsas təbii və antropogen landşaft komplekslərinin yayılma problemləri.

## 13.Təbiəti mühafizə, xüsusi qorunan ərazilər. Milli Parklar, qoruq və yasaqlıqlar.

Təbii sərvətlərdən səmərəli istifadə olunması və təbii ehtiyatların qorunması problemi. Qiymətli fauna və flora növlərinin qorunması bərpası, inkişafı. Su və atmosferin çirklənməsinə qarşı mübarizə tədbirləri. Səhralaşma və ona qarşı mübarizə. Ayrı-ayrı bölgələrdə təbiətin mühafizəsinin səciyyəsi xüsusiyyətləri. Respublikada təbiətin müha- fizəsinə yönəldilən başlıca tədbirlər. Təbiəti mühafizə təşkilatları. Azərbaycanın "Qırmızı kitabı", Azərbaycan ərazisində yaradılan milli parklar, qoruqlar, yasaqlıqlar və onların qısa səciyyəsi.

## 14.Xəzər dənizinin fiziki coğrafiyası.

Xəzər dənizinin coğrafi mövqeyi, sahilinin quruluşu,adaları. Xəzər dənizinin suyunun fiziki və kimyəvi tərkibi, suyunun şəffaflığına təsir göstərən amillərin təhlili, səth sularının temperaturu. Xəzər dənizinin bioaləmi. Xəzər dənizinin səviyyəsinin tərəddüdü və ekoloji problemləri.

## 15.Azərbaycan Respublikasının fiziki-coğrafi rayonlaşdırılması

Fiziki-coğrafi rayonlaşdırmanın elmi-nəzəri problemləri. Mövcud fiziki-coğrafi rayonlaşdırma sxemlərinin təhlili. Fiziki-coğrafi rayonlaşdırmanın taksonomik vahidləri sistemi. Azərbaycan Respublikası ərazisinin fiziki-coğrafi vilayətləri və rayonları sxemi. Əsas fiziki-coğrafi vahidlərin (Böyük Qafqaz, Kiçik Qafqaz, Orta Araz, Kür çökəkliyi və Lənkaran vilayətləri) səciyyəsi.

## 16.Azərbaycan Respublikasının iqtisadi-coğrafi mövqeyi, ərazisi və sərhədləri.

Fənnin əsas məqsədi əhalinin və təsərrüfatın kompleks ərazinin spesifik xüsusiyyətlərini və qanunauyğunluqlarını tələbələrə aşılamaq. Əsas vəzifəsi isə Azərbaycanın müasir dünyada yerini, onun təbii ehtiyatlarını, sosial – demoqrafik potensialını, bazar iqtisadiyyatında iqtisadiyyatın transformasiyasını göstərmək. Azərbaycanın coğrafi mövqeyinin xüsusiyyətləri, iqtisadi-coğrafi və nəqliyyat-coğrafi mövqelərinin quruluşu. Azərbaycan geosiyasi mövqeyi və müasir dövrdə onun dəyişməsi. Ərazisinin və sərhədlərin formalaşması.Sərhəd təhlükəsizliyi və problemləri.

### 17.Azərbaycan Respublikasının təbii-ehtiyat potensialının iqtisadi-coğrafi qiymətləndirilməsi.

Təbii şəraitin rəngarəngliyi və onların sosial-iqtisadi qiymətləndirilməsi. İqlim, aqroiqlim ehtiyatları və onların təsərrüfatın ixtisaslaşmasına təsiri.İqlim dəyişmələri və təsərrüfata təsiri. Su ehtiyatları və istifadə imkanları.Su təminatı problemləri.Transsərhəd çayları problemi. Mineral – xammal bazasının səciyyəsi və əsas ehtiyat növləri ilə təminatı. Azərbaycanın torpaq fondunun səciyyəsi və kənd təsərrüfatına yararlı torpaqlar.Rekreasiya və kurort – müalicəvi ehtiyatlar.

### 18.Azərbaycan Respublikasının əhalisi və demoqrafik proseslər.

Əhalinin sayı,dinamikası, inkişafının templəri və meylləri. Əhalinin təkrar istehsalı və ona təsir edən amillər. Doğum və ölüm halları, təsir edən amillər və onların regional xüsusiyyətləri. Əmək ehtiyatları və iqtisadi fəal əhali. Əhalinin cins, yaş quruluşu,təsir edən amillər, regional fərqlər və əmək qabiliyyətli əhaliyə düşən demoqrafik yük. Əhalinin miqrasiyası və

dianmikası. Daxili və xarici miqrasiya. Əhalinin milli tərkibi, milli tərkibin illərcə dəyişməsi və xalqların məskünlaşması.

## 19.Azərbaycan Respublikasının şəhər və kənd əhalisinin məskunlaşması. Növləri və formaları.

Azərbaycanda urbanizasiyanın dinamikası və miqyası. Kəndlərdən şəhərlərə kütləvi miqrasiya və şəhər həyat tərzində urbanizasiyanın natamamlığı. Azərbaycan şəhərlərinin fərdi xüsusiyyətləri və onların ümumi cəminə görə təsnifatı. Aqlomerasiyanın problemləri və onların inkişaf miqyası. Respublikanın böyük şəhərlərinin xüsusiyyətləri. Azərbaycan şəhərlərinin inkişafında iqtisadi-coğrafi mövqeyinin rolu. Şəhərlərin funksiyası. Kənd məskunlaşması və kənd yaşayış məntəqələri. Kənd yaşayış məskənlərinin ölçüsünün və sıxlığının təbii şəraitlə qarşılıqlı əlaqəsi.

## 20.Azərbaycan Respublikasının yanacaq-energetika kompleksinin coğrafiyası.

Yanacaq-energetika kompleksinin əhəmiyyəti, quruluşu və Azərbaycan sənayesində yeri. Yanacaq-energetika kompleksinin sahələrinin coğrafiyası, neft və qaz sənayesinin inkişafının əsas rayonları. Neftin və qazın hasilat dinamikası.Müstəqillik ilərində neft sənayesinin inkişafı."Əsrin müqaviləsi" onun neft sənayesinin və ölkə iqtisadiyyatının inkişafında əhəmiyyəti.Neft fondunun yaradılması və əhəmiyyəti. Elektroenergetikanın inkişaf xüsusiyyətləri və coğrafiyası. Hidroenerji potensial, böyük su və istilik elektrik stansiyaları. Alternativ enerji mənbələri və onlardan istifadə potensialı. Azərbaycanda Yaşıl energetikanın inkişaf potensialı.

### 21. Azərbaycan Respublikasının Metallurgiya, maşınqayırma və kimya sənayesinin coğrafiyası.

Qara və əlvan metallurgiyanın coğrafiyası, yanacaqla və xammalla təchizat problemləri, xarici bazara çıxmaq imknaları. Metallurgiya kompleksinə daxil olan sahələrin müxtəlif inkişaf meyilləri: alüminium sənayesinin davamlı inkişafı. Kimya sənayesinin coğrafiyası. Xammal bazasının xüsusiyyətləri. Kimya sənayesinin sahə və ərazi quruluşu. Kimya sənayesinin Azərbaycan Respublikasında əsas mərkəzləri. Azərbaycan Respublikasında maşınqayırmanın inkişaf mərhələləri. Maşınqayırma sənayesində məhsul növlərinin istehsalının azalma templərinin fərqi. Maşınqayırmanın əsas mərkəzləri.

### 22. Azərbaycan Respublikasının yüngül, qida və tikinti sənayesinin coğrafiyası.

Yüngül və qida sənayelərinin inkişaf templəri. Böyük şəhərlərdə qida sənayesində təmərküzləşmə nəticəsində müəssisələrin birləşməsi, böyüməsi prosesi və geniş istehlak bazarı.

İnvestisiyaların tez qayıdan sahələrində (tütün, pivə istehsalı, qənnadı) böyük xarici investorların gəlməsi, investisiyaların şəhərlərin şəhər kənarı zonalarında təmərküzləşməsi.

Tikinti sənayesinin xammal bazası, coğrafiyası və yerləşməsi. Tikinti sənayesinin inkişafında regional xüsusiyyətlər.

## 23. Azərbaycan Respublikasının Aqrarsənaye kompleksi. Kənd təsərrüfatının coğrafiyası.

Kənd təsərrüfatı sahələrinin coğrafiyası və onların regional növləri, iqtisadiyyatın aqrosənaye kompleksinin quruluşu. Kənd təsərrüfatının ərazi quruluşunun qanunauyğunluqları və onlara təsir edən amillər. Təbii şəraitin və aqroiqlim ehtiyatların kənd təsərrüfatının ərazisi differensiyasına təsiri. Kənd təsərrüfatın ixtisaslaşması və intensivlik səviyyəsinin ərazi fərqləri. Bitkiçilik və mədəni bitkilərin yerləşməsinə təsir edən təbii və sosial-mədəni amillər. Dənli bitkilərin coğrafiyası. Taxıl ölkənin vacib ərzaq dənli bitkisi kimi. Texniki bitkilərin ekoloji xüsusiyyətləri və onların yayıldığı əsas rayonlar. Pambıqçılıq, çayçılıq. Meyvə tərəvəz bitkilərin coğrafiyası, üzümçülük. Bitkiçilikdə məhsuldarlıq, onun sahələr və regionlar üzrə fərqləri və səbəbləri.

Heyvandarlıq sahələrinin yerləşmə xüsusiyyətləri. Heyvandarlığın yem bazasının növlərinin fərqləri. Otlaq ehtiyatları ilə təminat. Heyvandarlığın əsas sahələrinin coğrafiyası: maldarlıq, qoyunçuluq, quşçuluq. Xüsusi yem bazası olan heyvandarlıq sahələri (arıçılıq, balıqçılıq, ipəkqurdu).

## 24. Azərbaycan Respublikasının nəqliyyatının və xarici iqtisadi əlaqələrinin coğrafiyası. Xidmət sahələrinin və turizmin coğrafiyası

Daxili iqtisadi məkanın inkişafı və dünya bazarlarına çıxmaq üçün nəqliyyat sistemi: quruluşu, inkişaf dinamikasının əsas göstəriciləri. Ayrı-ayrı nəqliyyat növlərinin nəqliyyat sistemində rolu və funksiyası. Nəqliyyat sisteminin inkişaf problemləri və Azərbaycan iqtisadiyyatının açıqlıq şəraitində Avropa və Asiya nəqliyyat şəbəkələri ilə əlaqələrin yaxşılaşdırılması.

Azərbaycan nəqliyyat şəbəkəsində dəmir yolu nəqliyyatının rolu. Dəmir yolu nəqliyyatının inkişafı,yük daşımaların coğrafiysaı, sərnişin daşımaların əsas istiqamətləri.

Avtomobil nəqliyyatının coğrafiyası. Avtomobil nəqliyyatı Azərbaycan ərazisində əsas daxili rayonlararası nəqliyyat növü kimi

Boru kəməri nəqliyyatının coğrafiyası. Azərbaycan Respublikasının və Müstəqil Dövlətlər Birliyinin nəqliyyat sistemlərində boru kəməri nəqliyyatının geosiyasi rolu və enerji təhlükəsizliyin təminatı.

Dəniz nəqliyyatının coğrafiyası və xarici iqtisadi əlaqələrin təmin olunmasında rolu.

Hava nəqliyyatının coğrafiyası. Azərbaycanın iri hava limanları və onların təkmilləşdirilməsi problemləri. Xarici iqtisadi əlaqələrin quruluşu və coğrafiyası. Xarici ticarət əlaqələri, ixrac və idxalın quruluşu və coğrafiyası.

Xidmət sahələri anlayışıMüasir dövrdə xidmət sahələrində əhalinin məşğulluğunun artması. Xidmət sahələrinin inkişafında regional fərqlər.

Təbii sərvətlərdən istifadəyə əsaslanıb Azərbaycanda inkişaf edən rekreasiya fəaliyyətinin formalaşma xüsusiyyətləri. Azərbaycanın rekreasiya potensialı. Rekreasiya xidmətlərinin keyfiyyətinə olan tələblər və istirahət zonalarının genişlənməsinin coğrafiyası. Turizmin növləri. Turizm inkişaf problemləri və perspektivləri.

## 25.Xəzər dənizinin Azərbaycan Respublikasının iqtisadiyyatında əhəmiyyəti.

Xəzərin iqtisadi coğrafi xüsusiyyətləri və iqtisadi-coğrafi mövqeyi. SSRİ-nin dağılmasından sonra Xəzərin statusunun təyin olunması və delimitasiyası. Xəzərin təsərrüfat əhəmiyyəti. Xəzərin bioloji ehtiyatlarının

qiymətləndirilməsi və istifadəsi. Balıqçılığın Xəzərdə inkişafı. Sahil zonası və ona birləşən ərazilər təsərrüfat fəaliyyətinin vacib elementi kimi. Xəzərin neft və qaz ehtiyatlarının qiymətləndirilməsi və istifadəsi. Xəzərin Rekreasiya ehtiyatları. Dəniz nəqliyyatının inkişafı. Xəzərin ekoloji problemləri. Ölkənin iqtisadiyyatında Xəzər dənizinin rolu.

## 26.Azərbaycan Respublikasının iqtisadi rayonlaşdırılması. Bakı, Abşeron-Xızı iqtisadi rayonları

Rayonlaşmanın əsasları və Azərbaycanın iqtisadi-coğrafi rayonları.Bakı və Abşeron-Xızı iqtisadi – coğrafi rayonu. İCM və təbii şəraitinin xüsusiyyətləri. Təbii-ehtiyat potensialının qiymətləndirilməsi və Azərbaycanın məhsuldar qüvvələrinin inkişafında rolu. Yanacaq-energetika kompleksinin sahələrinin əhəmiyyəti. Neft və qazın hasilat rayonları, dəniz şelfinin ehtiyatlarının istifadə perspektivləri. Neftqazkimya və maşınqayırma komplekslərinin xüsusiyyətləri. Şəhərətrafı kənd təsərrüfatının üstünlük təşkil etməsi. Aqrosənaye kompleksi. Bakı-Azərbaycanın siyasi, inzibati, iqtisadi və maliyyə mərkəzi kimi.

Nəqliyyat və xidmət sahələri. Rayonda turizmin inkişafı. Ekoloji problemləri. Daxili fərqləri və inkişaf perspektivləri.

## 27. Quba–Xaçmaz, Şəki– Zaqatala, Dağlıq Şirvan iqtisadi rayonları.

Quba–Xaçmaz iqtisadi-coğrafi rayonu.Rayonun iqtisadi-coğrafi mövqeyi. Rayonun təbii şəraitinin və təbii ehtiyatlarının qiymətləndirilməsi. Rayonda demoqrafik şərait. Təsərrüfatın sahə quruluşu. Rekreasiya xidmətlərinin və dağ-idman kompleksinin inkişafı.

Nəqliyyatın inkişafı. Daxili fərqləri və inkişaf perspektivləri. İqtisadi-coğrafi rayonun formalaş-masında və inkişafında İCM rolu.

Şəki–Zaqatala iqtisadi–coğrafi rayonu. Rayonun etnik rəngarəngliyi və müasir vəziyyəti. Demoqrafik proseslər. Təbii fəlakətlərin təsərrüfata təsiri. Rayonun təsərrüfatının sahə quruluşu. Aqrosənaye kompleksi. Meyvəçilik. Rayonun rekreasiya potensialı və onun inkişafı. Daxili fərqləri və rayonun inkişaf problemləri.

Dağlıq Şirvan iqtisadi – coğrafi rayonu. Rayonun iqtisadi-coğrafi mövqeyinin xüsusiyyətləri. Rayonun təbii şəraitinin və təbii ehtiyatlarının qiymətləndirilməsi. Demoqrafik şərait. Təsərrüfatın ərazi quruluşu. Rayonun inkişafında nəqliyyatın rolu. Daxili fərqləri və inkişaf problemləri.

## 28. Mərkəzi Aran, Mil-Muğan,Şirvan-Səlyan iqtisadi rayonları.

Mərkəzi Aran iqtisadi-coğrafi rayonunun makroiqtisadi göstəriciləri, əhalisi,təbii-ehtiyat potensialı. Rayonun təsərrüfatının ixtisaslaşdırılmasında iqtisadi-coğrafi mövqeyin əsas amil kimi rolu. Təsərrüfatının quruluşu. Elektroenergetika və aqrosənaye kompleksləri üzrə rayonun ixtisaslaşdırılması. Kənd təsərrüfatının coğrafiyası. Taxılçılıq. Pambıqçılıq. Nəqliyyatın coğrafiyası. Daxili fərqləri və inkişaf perspektivləri.

Mil-Muğan və Şirvan-Səlyan iqtisadi–coğrafi rayonlarının təbii ehtiyat potensialı. Makroiqtisadi göstəriciləri. Təsərrüfatlarının quruluşu. Sənaye və kənd təsərrüfatı. Xidmət sahələrinin coğrafiyası.

## 29. Gəncə-Daşkəsən,Qazax-Tovuz,Lənkəran-Astara iqtisadi rayonları.

Gəncə -Daşkəsən iqtisadi – coğrafi rayonun təbii ehtiyat potensialı. İqtisadi-coğrafi mövqeyinin xüsusiyyətləri əhalisinin coğrafiyası və demoqrafik şərait. Şəhərləri və kənd yaşayış məntəqələri. Dağ-mədən sənayesi. Rayonun aqrosənaye kompleksi. Nəqliyyatı. Rayonun rekreasiya-turizm potensialı. İqtisadi-coğrafi rayonun inkişaf yolları.

Qazax-Tovuz iqtisadi – coğrafi rayonun sahəsi, ərazi-inzibati bölgüsü, İCM. Təbii şəraitin və ehtiyatların qiymətləndirilməsi. Şəhərləri və kənd yaşayış məntəqələri. Rayonun aqrosənaye kompleksi. Nəqliyyatı. Rayonun rekreasiya-turizm potensialı. İqtisadi-coğrafi rayonun inkişaf yolları.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonun təbii ehtiyyat potensialı. İqtisadi-coğrafi mövqeyinin xüsusiyyətləri əhalisinin coğrafiyası və demoqrafik şərait. Şəhərləri və kənd yaşayış məntəqələri. Təsərrüfatının inkişaf xüsusiyyətləri. Kənd təsərüfatının coğrafiyası və aqrar sənaye kompleksi. Rayonun rekreasiya-turizm potensialı. İqtisadi-coğrafi rayonun inkişaf yolları.

## 30. Naxçıvan,Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonları

Naxçıvan iqtisadi – coğrafi rayonunun Geosiyasi kontekstdə eksklav respublikanın İCM. Təbii şəraiti və ehtiyatları. Regionun prioritet inkişaf istiqaməti olan tarixi turizm və müalicəvi sağlamlıq istirahəti. Rayonda demoqrafik şərait. Təsərrüfatın inkişaf istiqamətləri.Nəqliyyatın inkişafı. Daxili fərqləri və inkişaf yolları.

Azad olunmuş ərazilər, tarixi, geosiyasi əhəmiyyəti. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların təbii

şəraiti və ehtiyatları. Təsərrüfatın bərpası. Regionun prioritet inkişaf istiqamətləri. Regional fərqlər.

## Tövsiyə olunan ədəbiyyat


**Əsas**

1. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. Prof. Əfəndiyev V.Ə redaktəsi ilə Baki, 2010.
2. Əfəndiyev V.J., Nağıyev S.Q. Əhali coğrafiyası, Bakı, Bakı Uni versiteti nəşriyyatı, 2006, 337s.
3. ƏfəndiyevV.Ə.,NağıyevS.Q.Geourbanistika. Bakı, Bakı Universiteti nəşriyyatı, 2016, 271 s.
4. Məmmədov M.Ə. Azərbaycanın hidroqrafiyası. Bakı, 2012, 251 s.
5. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası Bakı, Maarif. 1998
6. Будагов Б.А. Современные ландшафты Азербайджана. Баку, 1988
7. Ибрагимов М.А. Агропромышленный комплекс Азербайджана. Баку, Елм, 2002
8. Лаппо Г.М. География городов М.: Владос,1997, 481с. 6. Перцик Е.Н. Геоурбанистика. М.: Академия, 2009, 430с.
9. Мусеибов М.А. Ландшафты Азербайджанской Республики. Изд.БГУ, 2013
10. Прилипко Л.И. Растительный покров Азербайджана. Баку, 1970

**Əlavə**

1. Azərbaycan iqtisadiyyatı A.A.Nadirovun redaktorluğu ilə Bakı.Elm, 2003

2. Əfəndiyev V.Ə., Dəmirqayayev S.Q. Azərbaycan Respublikasının şəhərlərinin inkişafının coğrafi məsələləri Bakı, Nicat, 1995

3. Хорев Б. С. Проблемы городов. М. 1975

4. Перцик Е. Н. Города мира. География мировой урбанизации. М.:1999-2010.

5. Əfəndiyev V.Ə., Qasımova F.E. Azərbaycanda qəsəbə. Bakı, 2013.